## "AZƏRBAYCAN" - 104



# 70 il "təkadamlıq kamera"da saxlanıldı

**"Azərbaycan" qəzeti əqidəsinə, müstəqillik niyyətinə, aydın, doğru danışdığına, həqiqəti söylədiyinə görə "həbs" edilibmiş!**

**"Azərbaycan" qəzeti bolşevik-daşnak birliyinin Azərbaycanı necə işğal edərək xalqı qırdığını, Bakı neftini sovurub apardığını ifşa etdiyinə görə həbsxanaya atılıbmış!**

"Azərbaycan" qəzeti heç zaman XI Qızıl ordunu "xilaskar" adlandırmayıb, erməni daşnaklarının xalqımızın düşməni olduğunu, günahsız insanları qətlə yetirdiyini, kənd və şəhərləri qarət edib yandıraraq soyqırımları törətdiyini faktlarla yazdığına görə gün işığına həsrət qoyulubmuş.

*Sovet hakimiyyəti isə belə həqiqətlərin deyilməsini və yazılmasını istəmirdi!*

*Azərbaycan xalqının nə vaxtsa özünə müstəqil dövlət quraraq müstəqil yaşadığını ona unutdurmaq istəyirdi.*

Bu gün haqq, ədalət öz yerini tutub!

Torpaqlarımız işğaldan azad olunub!

*Müstəqil Azərbaycan günü-gündən güclənir, siyasi nüfuzu yüksəlir, dünyada hörməti artır.*

*Müstəqil, qüdrətli Azərbaycanın azad, xoşbəxt rəsmi dövlət qəzeti olan "Azərbaycan" bu uğur və qələbələrdən, Qarabağın cənnətə çevrilməsi prosesindən sevinclə, fərəhlə yazır.*

*Yeni dövrün yeni salnaməsini yaradır!*

10-11

# "AZƏRBAYCAN" - 104

# 70 il "təkadamlıq kamera"da saxlanıldı




Bu gün "Azərbaycan" qəzetinin 104 yaşı tamam olur!

Tanrı hər kəsə 104 il ömür sürmək qismət etmir!

Amma görəndə ki bu 104 illik ömrün böyük qismi - 70 ili "həbsxanada", "təkadamlıq kamera"da keçib, üstəlik, görüşünə kimsə - nə doğma, nə yaxın, nə dost - heç birisi buraxılmayıb, kədərlənirsən, yaşanan acı taleyə təəssüflənirsən...

Bəli, Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi qəzeti olan "Azərbaycan" sovet hakimiyyətinin 70 il mövcudluğu ərzində xalqdan gizlədildi, nə mətbuat tədqiqatçılarının, nə tarixçilərin, nə qeyrilərinin onu oxumasına imkan verildi!

*"Tam məxfi" qrifi altında saxlanıldı!*

*İnsanlar üçün zindan, qəzetlər üçün isə arxivlərin gizli, əlçatmaz yerləri həbsxana sayılır!*

*Hələ bu günədək bolşevikləri qorxudan "Azərbaycan"ın 443 nömrəsini tam şəkildə, qəzet halında toplamaq mümkün olmayıb!*

**"Azərbaycan" bu "cəza"ya həqiqəti dediyinə və yazdığına, müstəqil dövlət qurmaq tərəfdarı olduğuna, xalqına və millətinə sədaqətlə, milli maraqlara dəyanətlə xidmət etdiyinə görə "layiq görülmüşdü".**

**70 il çəkən bu cəza sonda ona utanc, töhmət yox, şöhrət gətirdi, şərəf gətirdi!**

*Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazandı, Ulu Öndər Heydər Əliyev bu müstəqilliyi əbədiliyə və dönməzliyə çevirdi, xalq ən müqəddəs arzusuna çataraq müstəqil dövlətini qurdu və yaşatdı. "Azərbaycan"ın üzünə azadlıq qapıları açıldı, böyük sevinc, inam və qətiyyətlə müstəqillikdən, milli maraqlardan, müstəqil dövlət quruculuğundan yazmağa başladı.*

*Prezident İlham Əliyev Azərbaycanı qüdrətli dövlətə çevirdi, daim müstəqil, dövlətin və xalqın maraqlarına xidmət edən daxili və xarici siyasət yürütdü, qüdrətli ordu quraraq 44 günlük Vətən müharibəsində böyük Zəfər qazandı, "dəmir yumruğ"u ilə düşmənin başını əzərək ona kapitulyasiya aktını imzalatdırdı, işğal altındakı torpaqları azad etdi!*

**"Azərbaycan" bütün bunlar barədə gen-bol, böyük sevinc və fərəh hissi ilə yazdı, xalqın qəhrəmanlığını və qələbələrini öz səhifələrinə həkk etməklə tarix üçün, gələcək nəsillər üçün yaşatdı!**

Daha bir xoş və fərəhli məqam.

*ADA Universitetinin rektoru, professor Hafiz Paşayevin təşəbbüsü və rəhbərliyi ilə yüz ildən sonra "Azərbaycan" qəzeti transliterasiya edilərək kitab halında çap olunmağa başladı, geniş ictimaiyyətə təqdim edildi.*

Artıq ADA Universiteti ilə "Azərbaycan" qəzetinin birgə layihəsi əsasında qəzetin nömrələri ardıcıl və sistemli şəkildə yenidən, bu dəfə müasir "Azərbaycan"ın səhifələrində çap edilərək oxucuların diqqətinə çatdırılır.

Həmin dövrdəki nömrələri oxuyanda "Azərbaycan" qəzetinin "həbsi" və 70 il ərzində "təkadamlıq kamera"da saxlanma səbəbləri hər kəs üçün bir daha aydın olur.

**"Azərbaycan" qəzeti əqidəsinə, müstəqillik niyyətinə, aydın, doğru danışdığına, həqiqəti söylədiyinə görə "həbs" edilibmiş!**

**"Azərbaycan" qəzeti bolşevik-daşnak birliyinin Azərbaycanı necə işğal edərək xalqı qırdığını, Bakı neftini sovurub apardığını ifşa etdiyinə görə həbsxanaya atılıbmış!**

"Azərbaycan" qəzeti heç zaman XI Qızıl ordunu "xilaskar" adlandırmayıb, erməni daşnaklarının xalqımızın düşməni olduğunu, günahsız insanları qətlə yetirdiyini, kənd və şəhərləri qarət edib yandıraraq soyqırımları törətdiyini faktlarla yazdığına görə gün işığına həsrət qoyulubmuş.

*Sovet hakimiyyəti isə belə həqiqətlərin deyilməsini və yazılmasını istəmirdi!*

*Azərbaycan xalqının nə vaxtsa özünə müstəqil dövlət quraraq müstəqil yaşadığını ona unutdurmaq istəyirdi.*

Bu gün haqq, ədalət öz yerini tutub!

Torpaqlarımız işğaldan azad olunub!

*Müstəqil Azərbaycan günü-gündən güclənir, siyasi nüfuzu yüksəlir, dünyada hörməti artır.*

*Müstəqil, qüdrətli Azərbaycanın azad, xoşbəxt rəsmi dövlət qəzeti olan "Azərbaycan" bu uğur və qələbələrdən, Qarabağın cənnətə çevrilməsi prosesindən sevinclə, fərəhlə yazır.*

*Yeni dövrün yeni salnaməsini yaradır!*

## Milli mətbuatımızın ənənə və prinsiplərini yaşadan orqan

Hər bir millətin qədim tarixi, özünəməxsus keçmişi var.

Hər bir millətin milli-mənəvi dəyərləri, ənənələri var.

Hər bir millətin həyata baxışı, mentaliteti var.

Hər bir millətin özünəməxsus mədəniyyəti, maddi və mənəvi mədəniyyət nümunələri, abidələri var.

Bütün bunlar əsrlərboyu yaranır və formalaşır, nəsildən-nəslə ötürülür.

Bunlar həm də milləti başqalarından fərqləndirir, özünəməxsus, özgün dəyər sahibi edir.

Belə fərqlər silinsə, hamı inkubator cücəsi kimi bir-birinə bənzəsə, həyat yekrəng və yeknəsəq olar, darıxdırıcı olar!

Xatırladırıq ki, tarixdə belə cəhdlər dəfələrlə olub!

Ən sonuncusu sovet dövründə baş verdi!

Sov.İKP sonuncu proqramında qarşısına xalqlar arasındakı fərqliliyi və özünəməxsusluğu ləğv etmək, hər millətin onu başqalarına bənzəməyə qoymayan əlamət və xüsusiyyətlərini aradan qaldırmaq, 15 müttəfiq respublikanın birləşdirilməsindən yaradılan SSRİ-də vahid xalq - sovet xalqı yaratmaq məqsədini qoymuşdu!

Hətta Sov.İKP-nin XXIV Qurultayında Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev SSRİ-də "xalqların tarixi birliyinin yeni formasının", "sovet xalqı"nın yarandığını bəyan etdi.

Amma zaman tam başqa həqiqəti ortaya qoydu!

**SSRİ-ni dağıdıb parçalayan təkcə iqtisadi böhran olmadı, həm də "qardaş xalqlar" arasındakı ziddiyyət və düşmənçiliklər, müttəfiq respublikaların öz maraqları və həmin maraqları təmin etmək istəkləri mühüm rol oynadı!**

Hər xalqın, hər millətin öz keçmişi olduğu kimi, gələcəyə də öz baxışı, arzu və maraqlarını reallaşdırmaqda tutduğu yol, seçdiyi məqsəd və istiqamət də var.

Təbii ki, bəşəri mədəniyyət və ideyalardan, sivilizasiyaların nailiyyətlərindən, mövcud texnika və texnologiyalardan bəhrələnmək də vacib və zəruridir.

Bunlarsız inkişaf baş tutmaz, xalqlar və millətlər yenidən velosiped icad etmək məcburiyyətində qalarlar!

❖ ❖ ❖

*Hər bir xalqın mədəniyyətinin bir parçası kimi mətbuatı da var.*

*Hər bir ölkədə milli mətbuatın tarixi həmin ərazidə hansısa qəzetin nəşrə başladığı gündən sayılır.*

*Azərbaycanda bu tarix 22 iyul 1875-ci ilə təsadüf edir!*

Həmin gün görkəmli alim və jurnalist Həsən bəy Zərdabinin naşiri və redaktoru olduğu "Əkinçi" qəzetinin ilk nömrəsi işıq üzü görmüşdür.

**Dünya elmindən, mədəniyyətindən və mətbuat təcrübəsindən bəhrələnən Həsən bəy Zərdabi "Əkinçi" qəzetini nəşr etdiyi müddətdə Azərbaycan milli mətbuatının prinsip və ənənələrini də yaratdı, dövrün tələblərinə uyğun şəkildə formalaşdırdı.**



"Əkinçi" təkcə insanlara "tazə xəbərlər" vermirdi.

O həm də maarifləndirirdi, oxucuların gözünü açırdı, dünyagörüşünü genişləndirirdi, dini mövhumata qarşı ardıcıl mübarizə aparırdı, dünyəvi elmləri təbliğ edirdi, dünyada baş verən hadisələrdən danışırdı, elmi biliklərdən söhbət açırdı, kəndlilərə bol məhsul götürməyin, çəkdikləri zəhmətin müqabilində daha çox qazanmağın sirlərini öyrədirdi.

Sonralar bu milli ənənələr digər mətbu orqanlarda da davam və inkişaf etdirildi.

Yeni ənənələr də yarandı.

*"Molla Nəsrəddin" jurnalının meydana gəlməsi ilə Molla Nəsrəddin ədəbi məktəbi yarandı, satirik mətbuatın ənənə və prinsipləri formalaşdı.*

*Tənqidçi realistlər meydana girdilər, Cəlil Məmmədquluzadənin qələmində sarkazm, Mirzə Ələkbər Sabirin yaradıcılığında satira ən yüksək səviyyəyə çatdı.*

1905-1907-ci illər inqilabından sonra siyasi mətbuatın, partiya qəzetlərinin yaranması yeni ənənələri meydana çıxardı.

Bolşevik mətbuatında yaranan və inkişaf edən ənənələr isə 70 illik sovet dövrü mətbuatının başlıca prinsiplərini təşkil etdi!

Əslində, bu, bəşər sivilizasiyasından kənar ənənələr idi.

**Azərbaycan milli mətbuatında müşahidə edilən digər mühüm ənənələr isə "Azərbaycan" qəzetinin meydana gəlməsi ilə bağlı oldu.**

*"Əkinçi" və digər çoxsaylı qəzet və jurnalların nəşri dövründə Azərbaycanda müstəqil dövlət, dövlətçilik anlayışı və bunlarla bağlı məsələlər qəzet səhifəsinə çıxarılmamış, müzakirə mövzusuna çevrilməmişdi.*

*Çünki müstəqil dövlətin özü, atributları, təsisatları və fəaliyyəti ilə bağlı faktlar, hadisələr mövcud deyildi!*

"Azərbaycan" qəzetində dünya praktikasından götürülərək yaradılan, yaşadılan və bu gün də davam edən milli ənənələr göz qabağındadır!

Dövlətin iqtisadi, siyasi, quruculuq sahəsində gördüyü işlər, dövlət başçısının fəaliyyəti, imzaladığı hüquqi aktlar, ölkə parlamentinin fəaliyyəti və qəbul etdiyi qanunlar, qərarlar, Azərbaycanın daxili və xarici siyasət məsələləri, dünyada baş verən proseslər, mədəniyyət hadisələri və digərləri müasir "Azərbaycan" qəzetinin işıqlandırdığı gündəlik mövzulardır.

**Bu mövzular, həmçinin onların qəzet səhifəsinə gətirilərək oxuculara təqdim olunması, sistemli şəkildə işıqlandırılması məhz Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranan "Azərbaycan"dan başlanmış, sonralar ölkənin digər qəzetlərinə də nüfuz etmişdir.**

Ümummilli qəzet sayılan "Azərbaycan" daim bütün fikirlərə, mövqelərə açıq olmuş, səhifələrində müxtəlif ideya və yanaşmaların səsləndirilməsindən qorxmamışdır.

Bu gün Azərbaycanda mətbuat və söz azadlığı təmin olunub, demokratik və plüralist cəmiyyət formalaşıb.

Bu gün hər bir ölkə vətəndaşı düşündüyü kimi yazmaqda, istədiyi fikri səsləndirməkdə tam sərbəstdir!

Qəzet təsis etmək, sayt açmaq, telekanal və internet televiziyası yaradaraq fəaliyyətə başlamaq yolunda heç bir maneə və çətinlik yoxdur!

Ölkə əhalisinin 95 faizindən çoxu internet istifadəçisidir.

*Kim nəyi necə bilir, hansı məsələ barədə nə sayaq düşünür, ağlı nətəhər kəsirsə, eləcə də yazır və danışır!*

*Demokratik cəmiyyət üçün adi və normal haldır!*

## Qəzetlə birlikdə itirəcəklərimiz

Daha insanlar sözə qoyulan maneələrdən deyil, əksinə, sözün hədsiz azadlığından və söz sahiblərinin məsuliyyətsiz davranışlarından əziyyət çəkirlər!

Jurnalist ixtisasına malik şəxs heç bir halda müəllim, həkim, mühəndis, aqronom, zootexnik və s. peşələrdə çalışa bilməz!

Çünki həmin sahələrdə ixtisasa dair dövlətin təsdiq etdiyi sənəd (təsdiq olunmuş diplom) və müvafiq ixtisas biliyinin tələb edilən səviyyəsi olmayanları işə qəbul etmirlər. Başqa sözlə desək, öz qapılarını yoldan keçənlərin üzünə açmırlar!

Jurnalistikanın isə nə qapısı, nə də pəncərəsi var!

İstənilən şəxs söz meydanına girərək orada at oynada bilər!

Hətta Azərbaycan dilinin qrammatik və üslubi qaydalarını kifayət qədər bilməyənlər də!

Jurnalistika sahəsinə ayaq basanlar "reket"likdən tutmuş "5-ci kolon"a qədər müxtəlif dəstələrə qoşularaq pul qazanmağın rəngarəng formalarından bəhrələnməkdə özlərini sərbəst hiss edirlər.

Belələrinə toxunmaq, fəaliyyətlərini məhdudlaşdırmaq da olmaz!

Dərhal Azərbaycana qarşı qərəzli mövqedə dayanan bəzi beynəlxalq qurum və təşkilatlar "söz və mətbuat azadlığının boğulduğu" barədə haray-həşir qopararaq müxtəlif "arayışlar" hazırlayıb yayırlar.

Nəticədə həmin "jurnalist" tanınaraq qısa müddətdə "məşhurlaşır", "yüksək reytinq" sahibinə çevrilir.

Həqiqi əskinasla saxta pulun fərqlənmədiyi bir mühitdə həqiqəti axtarıb tapmaq və qiymətləndirmək xeyli müşküldür!

**Belə bir məqamda "qəzetlər ömrünü başa vurub" məntiqi ilə düşünənləri və qəzetlərin sıradan çıxarılması üçün əllərindən gələni edənləri anlamaq çətindir!**

Bəli, müxtəlif kommunikasiya və platformalar yaranıb, baş verən hadisə barədə xəbər anındaca insanlara çatdırıla bilir!

*Məgər jurnalistika yalnız xəbərlərdən ibarətdir?*

*Yaxud dünyanın hansısa ölkəsində hansı bir tanınmış, öz ənənəsi olan qəzetlər sıradan çıxıb, bağlanıb?*

**Məgər 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövr ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyev məşhur qəzetlərin müxbirlərinə də müsahibə və açıqlamalar vermədimi?**

*Tutaq ki, qəzetlərin hamısını bağladıq!*

*Necə ki region qəzetləri son nəfəslərini yaşayaraq sıradan çıxmaq ərəfəsindədirlər!*

*Onda milli mətbuatın ənənə və prinsipləri necə yaşayacaq, harada qorunub saxlanılacaq?!*

*Daha onlara ehtiyac yoxdur?!*

**Bəs yerlərdə gedən möhtəşəm quruculuq prosesləri sistemli və əhatəli şəkildə harada, nə sayaq işıqlandırılacaq?!**

**Bəs bu gün baş verən və gələcək nəsillər üçün örnəyə çevrilən hadisələr tarixin yaddaşına necə həkk olunacaq, gələcək nəsillər bu günün qəhrəmanları, möcüzəvi hadisələri barədə haradan dəqiq məlumat alacaqlar?!**

Elektron saytlardan?

Sosial şəbəkədən?

Onların hansı biri etibarlı arxiv funksiyası daşıyır və yazdıqlarını yaşadır?!

Hələ necə yazdıqları, peşəkarlıq və obyektivlikləri barədə danışmırıq...

Əsl jurnalist qəzetdə yetişir, - bu birmənalıdır!

Həm qələmi püxtələşir, həm dünyagörüşü inkişaf edir, həm də sistemli şəkildə öyrənə bilir.

*Deməli, qəzetlərlə birlikdə bu canlı "jurnalistika" məktəblərini də bağlayırıq?!*

*Qazancımız nə olacaq?!*

*Jurnalistikanın gözəlliyini və rəngarəngliyini təmin edən, peşəkarla naşını bir-birindən fərqləndirən janrları necə, onları da qəzetlə birgə dəfn edirik?*

Hansı sosial şəbəkədə, saytda xəbərdən və müsahibədən başqa digər janrda yazıya rast gəlmək mümkündür?

Axı açıq qapıdan sorğu-sualsız sahəyə keçənlərdən, bayaq sadaladığımız sahələrdə olduğu kimi, bilik tələb edən, yazılı imtahan və sorğu-söhbət aparan olmur!

Heç kimdən janrların adı belə soruşulmur!

*Deməli, 147 ildə qazandıqlarımızı soyuqqanlı şəkildə, rahatlıqla itirəcəyik?!*

*Əyalət qəzetləri yox olandan sonra (buna lap az qalıb) jurnalist peşəsi "paytaxt peşəsinə" çevrilməyəcəkmi?*

*Bəs onda biz jurnalistlərin daim yazdığı və qabartdığı "insan haqları" necə olur?*

*Deməli, əyalətdə yaşayanlar jurnalist kimi çalışa bilməyəcəklər?*

*Sevdikləri peşə ilə məşğul olmaq üçün paytaxt Bakıya köçərək orada yaşamalıdırlar?!*

Görün nə qədər cavabını gözləyən suallar var!

Hələ bu, dərdin yarısıdır...

## Fərmanla qayıdan pişik

Qədim bir rəvayət var:

- Ucqar kəndlərin birində ixtiyar qoca öz qarısı ilə yaşayırmış. Çətinliklə dolanırmışlar, toyuq-cücə saxlayır, əllərinə keçəndən qış azuqəsi toplayır, günlərini birtəhər başa vurarmışlar.

Bunların bir pişikləri də varmış. Amma özünü yaxşı aparmırmış. Xəlvətə salıb yumurta oğurlayır, cücələri tutub yeyir, qarının gizlinclərinin axırına çıxırmış. Az sonra qonşulara da dadanır, onlardan da oğurluqlar edir. Neçə dəfə azdırırlarsa, yenə qayıdıb gəlir.

Qoca sonuncu dəfə pişiyin ayaqlarını kötüyün üstünə qırla yapışdıraraq çaya buraxır ki, uzaqlara getsin, geri qayıdıb onları yenidən tapmasın.

Bu zaman ova çıxan şah pişiyin belə vəziyyətini görüb bərk qəzəblənir. Onu azad etdirərək boynundan möhürlü fərmanını asdırır: "Bu pişiyə toxunanların boynu vurulacaqdır!"

Pişik fərmanla geri dönüb sahiblərini tapır. Qoca bu vəziyyəti görəndə qarısına: "Pişiyimiz bu dəfə fərmanla qayıdıb. Daha onun qabağında dura bilmərik! Görünür, biz özümüz köçməli olacağıq", - deyir.

**Bu gün sosial şəbəkə heç bir qaydaqanuna, prinsipə, əxlaq normalarına tabe olmadan fəaliyyət göstərir!**

## "AZƏRBAYCAN" - 104



# 70 il "təkadamlıq kamera"da saxlanıldı




**Qoca və qarının pişiyi kimi, ona da dəyib-dolaşmaq olmaz!**

Çünki interneti və onun "övladları"nı həm də məkrli məqsədlə:

- dövlətlərin daxilində qarışıqlıq salmaq;
- "5-ci kolon"u yaşadıb sərbəst fəaliyyət göstərməsini təmin etmək;
- rəngli inqilablar və müxtəlif "baharlar" hazırlayıb həyata keçirmək;
- ölkələrin rəhbərlərinə qarşı narazılıqlar yaradaraq onları körükləmək;
- ictimai rəyi istədikləri istiqamətlərə yönəltmək;
- feyk xəbərlər hazırlayaraq ən qısa müddətdə insanlara çatdırmaq üçün yaradıblar!

Dəfələrlə sadalanan prosesləri sınaqdan çıxarıblar!

*Adı virtual dünya olsa da, real məkana güclü təsir göstərə bilir!*

*Xüsusən insanların siyasi dünyagörüşlərinin zəif inkişaf etdiyi yerlərdə.*

22 iyul 2022-ci ildə Azərbaycan Milli Mətbuatının 147-ci ildönümü şərəfinə Şuşada keçirilən beynəlxalq mediaforumda bu barədə açıq və geniş söhbət getdi!

Ən müxtəlif mövzularda, ən müxtəlif zümrələri təmsil edənlər burada sərbəst şəkildə fikir və mülahizələrini bildirdilər, təkliflərini söylədilər.

Necə deyərlər, nə qədər insan varsa, o qədər də fikir var!

*Ən çox danışılan mövzu feyk xəbərlər və ondan qorunmağın, habelə sosial şəbəkənin və müasir jurnalistikanın problemləri və onlardan doğan fəsadlardan yaxa qurtarmağın yollarının axtarışları oldu.*

**Sosial şəbəkəyə "sosial media" statusu verilməsi, "vətəndaş jurnalistikası" anlayışının qanuniləşdirilməsi barədə israrlı təkliflər də verildi.**

Sosial şəbəkə bir platformadır. Orada insanlar fikir və mülahizələrini bölüşür, çəkdikləri fotoşəkilləri dərc edir, dediklərinin və etdiklərinin çoxluq tərəfindən bəyənilməsinə çalışırlar.

Olsun!

*Bu, artıq elə bir reallıqdır ki, ondan qaçmaq, yaxud qarşısını texniki və inzibati resurslarla almaq mümkün deyil!*

*Hətta dərc olunan yazılardakı mövqelərin ziyanlı olduğunu, əksər faktların yalan, hərdən aparılan kampaniyaların dövlətçilik əleyhinə yönəldiyini bilsək də belə!*

*Çünki Azərbaycan iqtidarı bəyan etdiyi söz və fikir, düşüncə azadlığına sadiqdir.*

**Belədə sosial şəbəkəyə "sosial media" statusu vermək, onu həqiqi, peşəkarların çalışdığı mediaya bərabər tutmaq nə deməkdir?**

**Bu, azdırılmış pişiyin boynundan "fərman asılması"na bənzəmirmi?**

Azərbaycan mediası əsrlərboyu mövcud olmuşdur və daim fəaliyyət göstərir.

Hətta bu yaxınlarda media haqqında yeni qanun da qəbul olundu, onun fəaliyyəti müasir dövrün tələbləri baxımından tənzimləndi.

*Bəli, media qanunlar əsasında fəaliyyət göstərir!*

*Və bu qanunlar zaman-zaman yenilənir.*

*Həm də təkcə qanunlar əsasında yox!*

*Milli mətbuatın ənənə və prinsipləri də qorunur və nəzərə alınır.*

*Bu, mühafizəkarlıq deyil, zərurətdir!*

Necə ki ingilislər heç kəsə və heç nəyə baxmadan qədim ənənələrini yaşadırlar. Bu, onları nə geri çəkir, nə də Avropanın gözündən salır.

**Əgər sosial şəbəkə heç bir qayda-qanunu tanımır və ona əməl etmirsə, orada beynəlxalq jurnalistikanın kodeks şəklinə salınmış prinsiplərinə məhəl qoyulmursa, bəzən insan şəxsiyyəti (söz azadlığından heç də az əhəmiyyəti olmayan prinsip) alçaldılırsa, yalana, şər və böhtana şüurlu şəkildə yer verilirsə, ona necə media demək, onu klassik media ilə bir sıraya qoymaq olarmı?!**

*Sosial şəbəkə hansı tarixi missiyanı yerinə yetirməklə məşğuldur ki, onun başını sığallayaq, hörmətli ad qoyaq, qanuni strukturla bir cərgədə tutaq?*

*Bu, kimlərəsə gərəkdir, yaxud kimlərəsə sərf edir!*

*Amma "oğru pişiyi" fərmanlandırmaq yaxşı heç nəyə gətirib çıxarmaz!*

Yaxud saysız-hesabsız elektron saytlarda çalışanların "vətəndaş jurnalistikası"nda ehtiva edilməsi təklifi...

Uzun müddət insanlar fikir və istəklərini, bir-birilərinə olan münasibətlərini hasarların üstündə, binaların giriş qapılarında, qayaların, parkda oturduqları skamyaların və s. üzərində əks etdiriblər.

Heç həmin dövrlərdə divarların, oturacaq və qayaların "vətəndaş jurnalistikası" adlandırılması məsələsi qaldırılmırdı.

Əksinə, qınanılır, tənqid olunurdu.

İndi eyni iş internetdə yerinə yetirilir.

"Vətəndaş nikahı" nədir bilirik, çünki bütün Avropa, dünya bu işlə məşğuldur.

Lakin belə nikaha girənlərə heç bir "sənəd" və ya "vəsiqə" verilmir.

*Jurnalistikadan xəbərsizlərin, jurnalistikanın qayda və prinsiplərinə əməl etməyənlərin bu adla mükafatlandırılmasının mənası nədir?*

*Elə dünyada dəbdə olan nə varsa, hamısını mexaniki şəkildə ölkəmizdə tətbiq etməliyik?*

Hətta onların mənasızlığını və ziyanlı tərəflərini bilsək də belə?

Mətbuat Şurasının çoxillik şikayətlərin araşdırılması və "qara siyahı"nın tərtib edilməsi təcrübəsi göstərir ki, "reketlik"lə məşğul olanlar kənardan bu sahəyə məhz pul qazanmaq niyyəti ilə gələnlərdir. "Reket jurnalist"lər arasında jurnalistika təhsili olanlara nadir hallarda təsadüf edilir.

**İndi belələrini də öz sıralarımıza qataraq onlara da "jurnalist" adı və statusu verməliyik?!**

Biz 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrlərdə dünyanın "demokratik mətbuat"ının sifətini, orada çalışan jurnalistlərin mövqelərini yaxşı gördük və tanıdıq!

Prezidentimizin onların feyk xəbərlərini və "feyk mövqe"lərini necə darmadağın etdiyinin şahidinə çevrildik!

Bu gün bəzilərinin bənzəmək istədikləri dünyanın "demokratik mətbuatı"nın 27 il ərzində Qarabağın və Şərqi Zəngəzurun işğalına hansı "obyektiv mövqe" sərgilədiklərinin də canlı şahidləriyik.

*İndi həmin "əcnəbi jurnalist"lərə bənzəyənlərə və siyasi sifarişlərin icraçılarına "vətəndaşlıq" verməliyik?!*

Məgər təklif verəndə, addım atmaq istəyəndə qabaqcadan araşdırmaq, ölçüb-biçmək lazım deyil?

Hər qulağa xoş gələn söz, ifadə mahiyyətin xoşluğundan və xeyirxahlığından xəbər vermir!

**Feyk xəbərlərə qarşı isə kəskin, ağıllı və sistemli, həm də operativ mübarizə aparılmalıdır.**

**Necə deyərlər, belə yalanlar elə beşiyindəcə boğulmalıdır!**

**Həm də hər bir vətənpərvər insan, qələm əhli və əsl azərbaycanlı tərəfindən!**

Bütövlükdə feyk xəbər dünyada geniş yayıldığından, informasiya müharibəsinin hələlik ən güclü və təsirli vasitələrindən biri sayıldığından ona qarşı xüsusi mübarizə metodu, başqa sözlə desək, aktiv mübarizə sistemi yaradılmalıdır.

Burada təkcə ifşa yox, qabaqlama tədbirləri də nəzərdə tutulmalı, milli mətbuatımızın sınanmış üsul və vasitələrindən geniş istifadə olunmalıdır.

Belə sistemli mübarizəyə nələrin daxil edilməsini məqsədəuyğun sayırıq:

- Milli mətbuatımızın həqiqilik, doğruluq, obyektivlik və dürüstlük ənənələrini daim qoruyub saxlamaq;
- Ölkə gənclərində vətənpərvərlik, dövlətçilik, müstəqillik duyğularını tərbiyə etmək və möhkəmləndirmək;
- İnsanları daim məlumatlandırmaq, maarifləndirmək, dünyada baş verən hadisələri və prosesləri onlara izah etmək, vətəni gözləyən təhlükə və təhdidlər barədə xəbərdarlıqlar etmək;
- Feyk xəbərlərin kor-koranə, düşünülmədən sosial şəbəkələrdən götürülüb saytlara qoyularaq yayılmasının qarşısını almaq, təhlükəli və məkrli cəhətlərini xəbərsiz insanlara mütəmadi şəkildə izah etmək;
- Hər hansı bir feyk xəbərə rast gələndə dərhal onun yalan, məkrli informasiya olduğunu açıqlamaq, əsl həqiqəti insanlara operativ şəkildə çatdırmaqla mənfur niyyətləri ifşa etmək;
- Xüsusən gənclər arasında sistemli maarifləndirmə, izahat işləri aparmaq, cəlbedici don geyindirilmiş yalan xəbərlərin mahiyyət və məqsədini onlara çatdırmaq;
- Jurnalistika sahəsinə yeni gələnlərlə, habelə peşənin ənənə, prinsip və incəliklərini bilməyənlərlə daim treninqlər keçirmək, milli maraqların sensasiya naminə qurban verilməsinin ağır nəticələrini və təhlükələrini onlara başa salmaq;
- Hər bir vətənpərvər jurnalisti mövqeyindən və çalışdığı media qurumlarından (qəzet, sayt, informasiya agentliyi, telekanal) asılı olmayaraq, feyk xəbərlərlə mübarizəyə səfərbər etmək;
- Müntəzəm və sistemli şəkildə həftə ərzində Azərbaycan informasiya məkanında yayılmış feyk xəbərlərin mütəxəssislər tərəfindən izahlı təhlilini vermək və bu barədə geniş ictimaiyyəti məlumatlandırmaq.

**Bir məqamı unutmayaq:**

**Azərbaycan gündən-günə güclənir, iqtisadi qüdrəti və siyasi nüfuzu artır.**

**Azərbaycan təkcə alət Ermənistanı deyil, onun havadarlarını və müdafiəçilərini də məğlubiyyətə uğratmış qalib dövlətdir!**

**Azərbaycan əlverişli coğrafi mövqeyə, getdikcə əhəmiyyəti daha da artan nəqliyyat dəhlizlərinin keçdiyi logistik məkana malikdir və ən əsası müstəqil, öz milli maraqlarını rəhbər tutan qətiyyətli siyasət yürüdür.**

*Bütün bunlar bəzilərini qane etmir, bir paralarının yuxusunu qaçırır.*

*Məhz buna görə də ölkəmizə qarşı informasiya müharibəsi dayandırılmayacaq, əksinə, daha da şiddətlənəcəkdir!*

*44 günlük Vətən müharibəsində biz bütün bu deyilənlərin dəfələrlə şahidi olduq!*

**Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev informasiya müharibəsində təkbaşına çalışaraq möhkəm iradəsi, yüksək hazırlığı, dərin intellekti, parlaq məntiqi və mübahisə bacarığı sayəsində Azərbaycana düşmən mövqe, qərəzli niyyətlə gələn jurnalistlərin dizini yerə qoydu, boğazlarını qurutdu!**

**Bütün bunlar gözlərimiz qarşısında baş verdi!**

**Dövlət başçısının bu bacarıq və təcrübəsindən biz jurnalistlər də geniş istifadə etməliyik!**

*Biz milli mətbuatımızı zəiflətməli deyil, əksinə, yeni vasitələrdən, sınaqdan çıxmış üsullardan və təsirli metodlardan istifadə edərək daha da gücləndirməliyik!*

*Bunu bizdən həm də Anamız Azərbaycanın milli və dövləti maraqları tələb edir!*

**Bəxtiyar SADIQOV**